2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 fevral 2020-ci il tarixli, 394 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 25 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 85 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əzizağa Mirpaşa oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 fevral 2020-ci il tarixli 394 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək müvafiq rəy verilmişdir.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Komissiyanın iclasında iştirak etməyə gəlməmişdir.

Namizəd Ə.M.Süleymanov dairə seçki komissiyasının qərarını mübahisələndirsə də qərarda göstərilən hallara dair fikir bildirməmiş, ümumi halda pozuntular baş verdiyi bildirmiş, əsasən də lider namizədin seçkiqabağı təşviqatı ilə bağlı ehtimal olunan pozuntular barədə məlumatlar göstərmişdir.

Müraciətin səsvermə gününədək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, Milli Məclisə seçkilərdə seçki dairəsi üzrə 830 nəfər müşahidəçi, vəkil edilmiş şəxs və məşvərətçi səs hüquqlu üzv qeydə alınmışdır. Bundan əlavə seçki dairəsi ərazisində müxtəlif qurumları təmsil edən 15 nəfər beynəlxalq müşahidəçi müşahidə aparmışdır. Deputatlığa namizəd Ə.M.Süleymanov dairənin əhatə etdiyi 63 seçki məntəqəsindən 14 seçki məntəqəsinə müşahidəçi təyin etmişdir. Seçki günü istər yerli müşahidəçilərdən, istərsə də beynəlxalq müşahidəçilərdən səsvermə başlandığı andan sona çatanadək, həmçinin səslər sayılarkən və məntəqə seçki komissiyasının yekun protokolu tərtib edilərkən dairə seçki komissiyasına və məntəqə seçki komissiyalarına seçki məntəqələrində qanun pozuntularına yol verilməsi barədə müraciət daxil olmamışdır. Namizədin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə yayımlanmış görüntülərə baxış keçirilmiş, lakin dairə seçki komissiyasının seçki məntəqələrindən hər hansı görüntü aşkar edilməmişdir.

Namizəd tərəfindən müraciətə əlavə edilmiş 2 ədəd elektron məlumat daşıyıcısı olan diskə (CD) baxış keçirilmiş, həmin disklərdən biri seçkiqabağı təşviqatla bağlı görüntülərdən, digəri isə səsvermə günü bəzi məntəqələrdə aparılmış və özündə hər hansı pozuntunu əks etdirməyən görüntülərdən ibarətdir.

Namizədin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə yayımlanmış görüntülərə baxış keçirilmiş, lakin dairə seçki komissiyasının seçki məntəqələrindən hər hansı görüntü aşkar edilməmişdir.

Aparılmış araşdırma məcmu şəkildə qiymətləndirilərək müəyyən edilir ki, seçki dairəsi üzrə qeydə alınmış namizəd Ə.M.Süleymanovun müraciətinin təmin edilməməsi barədə dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir. Ona görə də hazırki araşdırma ilə müraciətin təmin olunması və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 85 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əzizağa Mirpaşa oğlunun 23 fevral 2020-ci il tarixli 394 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsinin dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 20/2 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov